# İçərişəhərdən Moskva Olimpiadasına

**"Mən və uşaqlıq dostum, hazırda Azərbaycan Dövlət Televiziyasının idman proqramları baş redaksiyasının baş redaktor müavini, yüngül atletika üzrə Ümumittifaq dərəcəli hakim Abas Əzimov İçərişəhərdə, bir məhəllədə, Müslüm Maqomayev küçəsində böyüyüb boya-başa çatmışıq. Valideynlərimiz qonşu olmuşlar. Necə deyərlər, ayağımız yer tutandan hər ikimiz indi AzTV-də idman proqramları baş redaksiyasının baş redaktoru vəzifəsində çalışan Aydın Əliyev, müğənni Oqtay Ağayev, sonralar tanınmış idman mütəxəssisi olmuş Yaqub Zöhrabov və digər məhəllə uşaqları ilə birlikdə, demək olar, hər gün yaxınlıqdakı Sabir bağına gələr, səhərdən axşamadək top qovardıq ".**

Bu səmimi sətirlər rəhmətlik Tofiq Bəhramovdan sonra Azərbaycanda Beynəlxalq Futbol Federasiyasının hakimlər korpusunun ikinci səlahiyyətli nümayəndəsi, beynəlxalq dərəcəli hakim Eldar Əzimzadənin 1998-ci ildə "Elm və həyat" nəşriyyatında çap etdirdiyi "Məhəbbətim mənim – futbol" kitabında yer almışdır. Bu günlərdə iyirmi dörd il əvvəl 500 nüsxə tirajla nəşr olunmuş kitabı bir daha nəzərdən keçirərkən həmin fikir diqqətimi çəkdi.

Dünya şöhrətli futbol hakimimiz Eldar Əzimzadə də, yüngül atletika üzrə ümumittifaq dərəcəli hakim Abas Əzimov da xatirələrdə həm də 1980-ci ildə Moskvada keçirilmiş XXII Yay Olimpiya Oyunlarının hakimləri kimi yaşayırlar. Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyinin qeyd olunduğu və artıq finişə tələsən 2022-ci ildə biz də ləngiməyib onları da xatırlayaq. Bir də ona görə ki, hər iki rəhmətlik əsl idman adamı idi və olimpiadalarda hakimlik heç də hər kəsə etibar olunmur.

E.Əzimzadə dünyanın onlarla ölkəsinin futbol meydanlarında uğurlarla zəngin bir yol keçmişdir. Amma indi çoxdan arxada qalmış oyunları sadalamayıb, təkcə



Moskva Olimpiadası–80-də Lujniki stadionunda 85 min tamaşaçının izlədiyi Çexoslovakiya–ADR final görüşünü (1:0) yada salıb xatırlatmaq istərdim ki, matçdan sonra "Sport" mehmanxanasında Olimpiada iştirakçıları üçün verilən ziyafətdə FİFA prezidenti Joao Avelanj həlledici görüşü əla idarə etdiyinə görə həmyerlimizə medal təqdim etmişdir.

Keçmiş SSRİ çempionatlarında dəfələrlə ölkənin ən yaxşı on hakimi sırasına daxil edilmiş, üç dəfə isə bu siyahıda birinci olmuş bakılı hakimin ünvanına deyilən xoş sözlər həmişə idman ictimaiyyətimizi ürəkdən sevindirmişdir.

Ötən əsrin yetmiş–səksəninci illərində FİFA prezidenti Joao Avelanj, UEFA prezidenti doktor Artemio Franki, UEFA-nın hakimlər komitəsinin sədri Henrix Zaypert, məşhur sovet mütəxəssisləri Nikolay Latışev, Valeri Lobanovski, Valentin İvanov, Viktor Ponedelnik, Konstantin Beskov və başqaları E.Əzimzadə haqqında çoxlu tərif söyləmişlər.

Müxtəlif illərdə həm də Azərbaycan Dövlət İdman Komitəsinin futbol şöbəsinin müdiri, Bakı Bədən Tərbiyəsi Texnikumunun direktor müavini vəzifələrində çalışmış Eldar müəllimin özünün də dediyi kimi, ömrünün ən yaxşı illəri onun əbədi məhəbbəti olan futbolda keçmişdir. Futbol isə dünyada ən sevimli oyundur.

E.Əzimzadənin İçərişəhərdə uşaqlıq dostu olmuş A.Əzimov da Moskva–80-dən xoş əhval və Olimpiadanın xatirə medalı ilə qayıtmışdır. Abas müəllimin idman mətbuatında da yüksək fəallıq göstərdiyi illərdə, Azərbaycan Dövlət Televiziyasında fəaliyyəti dövründə, eləcə də AFFA-da çalışdığı zaman respublika mətbuatında, o cümlədən yaxından əlaqə saxladığı "Xalq qəzeti"ndə müntəzəm çıxışları xatirələrdən silinməyib.

Mərhum həmkarımızın gərgin əməyinin və yaradıcılığının bəhrəsi olan "Futbolumuz müstəqillik dövründə", "Neftçi"-70", "Azərbaycan milli komandası ", "Futbolumuzun futzal salnaməsi ", "Xatirələrdə yaşayanlar" və digər kitabları da futbol ictimaiyyətimiz üçün həmişə faydalı olmuşdur və bu gün də köməyimizə gəlir.



*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Xalq qəzeti .- 2022.- 14 dekabr.- S.5.